**“Təsdiq edirəm”**
**Bakı Slavyan Universitetinin**
**Tədris məsələləri üzrə prorektoru**
**Fikrət Cahangirov_____________**
**03 dekabr 2025-ci il**

# BAKI SLAVYAN UNİVERSİTETİ

## QİYMƏTLƏNDİRMƏ MEYARLARI ÜZRƏ
## T Ə L İ M A T

BSU-nun Elmi-metodiki Şurasının
03 dekabr 2025-ci il tarixli iclasında
(Protokol № 04 ) qəbul edilmişdir.

**Bakı – 2025**

## 1. Ümumi müddəalar

**1.1.** Bu Qaydalar Azərbaycan Respublikası qanunvericiliyinə, Azərbaycan Respublikasının Təhsil Qanununa, Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin normativ hüquqi aktlarına, təlimat və metodiki göstərişlərinə, qüvvədə olan digər qanunvericilik aktlarına, "Ali təhsil müəssisələrinin bakalavriat və magistratura səviyyələrində, əsas (baza ali) tibb təhsilində və Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsində kredit sistemi ilə tədrisin təşkili Qaydaları"na, "Azərbaycan Respublikası ali təhsil müəssisələri tələbələrinin bakalavr pilləsində dövlət attestasiyası haqqında Əsasnamə"yə, "Kredit sistemi ilə təhsilalan tələbələrin biliyinin qiymətləndirilməsi haqqında Əsasnamə"yə (Əmr 1060, 11.09.2008) və Bakı Slavyan Universitetinin (bundan sonra Universitet) Nizamnaməsinə əsasən hazırlanmışdır.

**1.2.** Bu Qaydalar BSU-da bakalavriat, magistratura səviyyələrində semestr imtahanlarının, o cümlədən doktoranturada qəbul və minimum imtahanlarının keçirilməsi ilə bağlı məsələləri tənzimləyir.

**1.3.** Bu Qaydalar Azərbaycan Respublikasının müvafiq qanunvericiliyi və 1.1. bənddə qeyd olunan sənədlərlə uyğunsuzluq təşkil etdikdə, Azərbaycan Respublikasmın qanunverciliyi ilə müəyyən olunan hallar əsas götürülür.

## 2. Qiymətləndirmə meyarları

### 2.1. Semestr ərzində gündəlik tələbə nailiyyətinin qiymətləndirilməsi

**0 bal** – Mövzu ilə bağlı heç bir bilik və fəaliyyət yoxdur;

**1 bal** – Tələbə keçirilmiş materialı yalnız xatırlayır;

**2 bal** – Tələbə keçirilmiş materialı xatırlayır və müəllimin müdaxiləsi ilə bir və ya iki sözlə cavablandırır;

**3 bal** – Tələbə keçirilmiş materialı tanış əlamətlərə görə qismən izah edir;

**4 bal** – Tələbə keçirilmiş və qismən mənimsədiyi materialdan istifadə edərək məlum yollarla və ya müəllimin verdiyi təlimatlara əsasən yazılı və şifahi tapşırıqları qismən həll edir;

**5 bal** – Tələbə keçirilmiş və mənimsədiyi materialdan istifadə edərək müstəqil şəkildə hazırlanmış qaydalara əsasən şifahi və yazılı tapşırıqları orta səviyyədə həll edir;

**6 bal –** Tələbə verilən məlumatla öz düşüncələri arasında əlaqə yaradır, cütlərlə və qruplarla iş zamanı yazılı və şifahi ünsiyyət quraraq materialın şərhini verir;

**7 bal –** Tələbə keçirilmiş materialın xarekterik əlamətlərini təyin edir, fərqləndirir, mövzunun analitik təhlilini aparır;

**8 bal –** Tələbə cavabını planlaşdırıb təşkil edir, cavabını təsdiq etmək üçün fərziyyə irəli sürür, audio-vizual materiallarla keçirilmiş mövzunun strukturunu dəyişir, öyrənmə strategiyalarını və öyrənmə hədəflərini müəyyənləşdirir;

**9 bal –** Tələbə keçirilmiş materialla əlaqədar qərarları, yanaşmanı, problemi dəyərləndirir, üstünlükləri və çatışmazlıqlara müstəqil fikir bildirir, İKT-dən istifadə edərək müstəqil öyrənmə modelini təyin edir;

**10 bal –** Tələbə keçirilmiş materialla əlaqədar mühakimə xarakterli və tənqidi fikir yürütməklə öz mövqeyini əsaslandırır, innovativ və yaradıcı düşünmə bacarıqlarını İKT-dən yararlanmaqla tətbiq edir, auditoriyadaxili və auditoriyadankənar fəaliyyətlər üzrə öyrənmə hədəflərini əsaslandırır.

### 2.2. Semestr imtahanında biletin sualları üzrə qiymətləndirmə meyarları

**0 bal –** Suala cavab verməyib.

**1 bal –** Ciddi səhvlərə yol verərək sualı səthi cavablandırıb (*yadda saxlamaq (bilik) - hafizəyönümlü*).

**2 bal –** Cavabında catışmazlıqlar var, yalnız mövzu ilə bağlı terminləri, anlayışları qeyd edib *(yadda saxlamaq (bilik) - hafizəyönümlü).*

**3 bal –** Sualı cavablandıran zaman yalnız mövzunun məzmunu ilə bağlı ümumi xarakterli məlumatlar verir *(yadda saxlamaq (bilik) - hafizəyönümlü).*

**4 bal –** Sualı cavablandıran zaman əlavə nümunələr göstərməklə mövzunun məzmununu öz sözləri ilə qismən təsvir edir (*anlamaq - məntiqi təfəkkür*).

**5 bal –** Sualı cavablandıran zaman əlavə nümunələr göstərməklə mövzunun məzmununu öz sözləri ilə tam təsvir edir (*anlamaq - məntiqi təfəkkür).*

**6 bal –** Mövzunun mahiyyətini açıqlayır və müəyyən nəticələr əldə etmək üçün məzmunla bağlı biliklərini praktik tətbiq edir, qoyulmuş problemin həlli yollarını müəyyənləşdirir *(tətbiq etmək - məntiqi təfəkkür).*

**7 bal –** Mövzunun mahiyyətini açır və qoyulmuş problemin həlli zamanı ümumi xarakterli səhvlərə yol verir *(təhlil etmək - məntiqi təfəkkür)*

**8 bal** – Mövzunun mahiyyətini açır, qoyulmuş problemin əhatəli təhlilini verir *(təhlil etmək - məntiqi təfəkkür)*

**9 bal** – Mövzunun mahiyyətini geniş şəkildə açır, qoyulmuş problem haqqında mühüm qərarlar verir, məsələyə münasibət bildirir və öz mövqeyini hərtərəfli şəkildə əsaslandırır *(dəyərləndirmək - tənqidi təfəkkür)*

**10 bal** – Mövzunun mahiyyətini dəqiq və hərtərəfli şəkildə açır, qoyulmuş problem haqqında mühüm qərarlar verir, mühakimə xarakterli fikirlər irəli sürür, öz mövqeyini hərtərəfli şəkildə əsaslandır və kreativ yanaşma nümayiş etdirir. *(yaratmaq - yaradıcı təfəkkür)*

**2.3. Xarici dillər üzrə danışıq (speaking) bacarığının qiymətləndirilməsi üzrə meyarlar (10 ballıq qiymətləndirmə şkalası üzrə)**

1. Nitqin aydınlığı – Düzgün tələffüz normalarına riayət edilməsi **– 2 bal**

2. Nitqin axıcılığı **– 2 bal**

3. Qrammatik dəqiqlik - Cümlələrin qrammatik cəhətdən düzgünlüyü **– 2 bal**

4. Uyğun söz bazasının seçilməsi **– 2 bal**

5. Məzmun, mövzünu əhatəetmə **– 2 bal**

**2.4. Yazı (Esse) modulunun qiymətləndirilməsi üzrə (10 ballıq qiymətləndirmə şkalası üzrə)**

*Essenin məzmunu və həcmi: (maksimum 5 bal)*

**5 bal** – Essenin məzmunu, həcmi və cümlələrin məntiqi əlaqəsi, sərbəst fikrin ifadəsi *tamamilə* uyğundur.

**4 bal** – Essenin məzmunu, həcmi və cümlələrin məntiqi əlaqəsi, sərbəst fikrin ifadəsi uyğundur.

**3 bal** – Essenin məzmunu, həcmi və cümlələrin məntiqi əlaqəsi, sərbəst fikrin ifadəsi qismən uyğundur.

**2 bal** – Essenin məzmunu, həcmi və cümlələrin məntiqi əlaqəsi, sərbəst fikrin ifadəsi əsasən zəifdir.

**1 bal** – Essenin məzmunu, həcmi və cümlələrin məntiqi əlaqəsi, sərbəst fikrin ifadəsi çox zəifdir.

**0 bal** – Essenin məzmunu, həcmi və cümlələrin məntiqi əlaqəsi heç uyğun deyil, sərbəst fikir ifadə edilməyib.

*Essenin lüğət bazasının zənginliyi (sinonim, antonim, müxtəlif ifadə formaları), dil səviyyəsinə və üslubi normalara uyğunluğu:* ***(maksimum 3 bal)***

**3 bal –** Essenin lüğət bazası zəngindir, müxtəlifdir, dil səviyyəsinə uyğundur:

**2 bal –**Essenin lüğət bazası qismən zəngindir və müxtəlifdir, dil səviyyəsinə qismən uyğundur:

**1 bal –** Essenin lüğət bazası zəifdir , dil səviyyəsinə qismən uyğundur:

**0 bal –** Essenin lüğət bazası çox zəifdir və dil səviyyəsinə uyğun deyil.

*Essedə buraxılan orfoqrafik və qrammatik səhvlər:* ***(maksimum 2 bal)***

**2 bal –** 3-5 səhv

**1 bal –** 5-9 səhv

**0 bal –** 10 səhvdən çox

## 3. Sağlamlıq imkanları məhdud şəxslərə münasibətdə xüsusi qiymətləndirmə üsulları

**3.1**. Sağlamlıq imkanları məhdud şəxslərə münasibətdə xüsusi qiymətləndirmə üsulları Azərbaycan Respublikasının "Sağlamlıq imkanları məhdud şəxslərin təhsili (xüsusi təhsil) haqqında qanun"u ilə tənzimlənir.

Bakı Slavyan Universitetində sağlamlıq imkanları məhdud şəxslərə münasibətdə təhsilalanların ehtiyaclarına uyğun qiymətləndirmə üsullarından istifadə edilir. Sağlamlıq imkanları məhdud şəxslərə təyinatına görə:

**3.1.1.** ***Görmə qabiliyyətini itirmiş şəxslər:***

- Təhsilalanlar əsasən tədris prosesinə şifahi formada cəlb olunur;

- Dərs otaqları universitet binasının birinci mərtəbəsində olan auditoriyalara salınır;

-Tədris resursları kimi audiokitablardan, Brayl(Braille) əlifbası ilə yazılmış kitablar, video dərslərdən istifadə olunur;

- Bakı Slavyan Universitetinin Elektron kitabxanasında E-kataloqda təlim-tədris resurslarının əlçatanlığı təmin olunur.

**3.1.2.** ***Fiziki məhdudiyyəti olan şəxslər:***

- Təhsilin inkluzivliyini təmin etmək üçün təhsilalanlar mənsub olduğu qrupla tədris prosesinə cəlb olunur;

- Dərs otaqları universitet binasının birinci mərtəbəsində olan auditoriyalara salınır;

- Təhsilverənlərin təhsilalanlara qarşı xüsusi, fərdi yanaşması təmin olunur;

- BSU-nun Elektron kitabxanasında E-kataloqda təlim-tədris resurslarının əlçatanlığı təmin olunur.

- Tədris və qiymətləndirmə prosesində inklüzivlik, bərabər imkanların təmin olunması və cəmiyyətə inteqrasiyası üçün təhsilalanlara yanaşmada fərdi imkanlar nəzərə alınır.

**3.1.3.** Sağlamlıq imkanları məhdud şəxslərə münasibətdə dərs və şifahi imtahan zamanı xüsusi qiymətləndirmə üsulları təlimatın 2.1 və 2.2 bəndlərində göstərilmiş “Semestr ərzində tələbə nailiyyətinin qiymətləndirilməsi” və “Semestr imtahanında qiymətləndirmə meyarı üzrə balların hesablanması” qaydalarına əsasən müəyyənləşir.

## 4. Yekun müddəalar

**4.1.** Bu təlimat kollegial formada hazırlanır və Elmi-metodiki Şurada təsdiq olunur.